**Şəhərsalma fəaliyyətini tənzimləyən norma və qaydaların təkmilləşdirilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasında tikinti sahəsində dövlət nəzarətinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 30 avqust tarixli 624 nömrəli Fərmanının 4-cü bəndinin icrası ilə əlaqədar şəhərsalma fəaliyyətini tənzimləyən norma və qaydaların təkmilləşdirilməsi üzrə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinin 2004-cü il 24 iyun tarixli 137 nömrəli, Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 2004-cü il 29 iyul tarixli 54 nömrəli əmrləri ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qüvvədə olan tikinti normativ sənədlərinin Siyahısı" nın I bölməsinin 1-ci hissəsinin (tikintinin təşkili, idarə olunması və iqtisadiyyatı) şəhərsalma və memarlıq fəaliyyətinə aid norma və qaydaları istisna olmaqla, 3-cü (tikinti işlərinin təşkili, istehsalı və qəbulu), 4-cü (smeta normaları) və 5-ci (tikintidə maddi və əmək vəsaitlərinin xərclənmə normaları) hissələri üzrə tikinti norma və qaydaları Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən, 1-ci hissəsinin (tikintinin təşkili, idarə olunması və iqtisadiyyatı) şəhərsalma və memarlıq fəaliyyətinə aid olan və 2-ci hissəsi (layihələndirmə normaları) üzrə tikinti norma və qaydaları Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən təsdiq və ya ləğv edilir, qüvvəyə minməsi və ya qüvvədən düşməsi barədə əmr verilir;

1.2. tikinti üçün layihə sənədləri sisteminin (TLSS) standartları Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən, inşaat işlərinin aparılması, nəzarəti və inşaat materiallarına aid standartları Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən təsdiq edilir, Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra qüvvəyə minir. i[1]

2. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə və Fövqəladə Hallar Nazirliyinə tapşırılsın ki, bu qərarın 1-ci bəndi ilə müəyyən edilmiş səlahiyyətlərinə aid milli tikinti normativ sənədlərinin 2008-2012-ci illər ərzində hazırlanmasını, təsdiq və respublika ərazisində tətbiq edilməsini həyata keçirsin.

3. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi milli tikinti normativ sənədlərin hazırlanmasını dövlət büdcəsində həmin təşkilatlar üzrə müvafiq məqsədlər üçün nəzərdə tutulan vəsaitlər hesabına həyata keçirsinlər.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 18 sentyabr 2008-ci il
№ 217

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

**1.** 21 yanvar 2009-cu il tarixli **12** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **()**

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

---

i[1] 21 yanvar 2009-cu il tarixli **12** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **()** ilə 1.1-ci bəndində "**Agentliyinin**" sözü "**Komitəsinin**" sözü ilə, 1.2-ci bəndində isə "**Agentliyi**" sözü "**Komitəsi**" sözü ilə əvəz edilmişdir.